**Azərbaycan Respublikası Təhsil Nazirliyi SABAH layihəsi (qrupları) tələbələrinə məqsədli SABAH təqaüdünün təyin edilməsi və ödənilməsi**

**Q A Y D A S I**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda SABAH qruplarında təhsil alan tələbələrə verilən bütün digər növ təqaüdlərdən əlavə, onların həvəsləndirilməsi üçün nəzərdə tutulan məqsədli təqaüdün ("SABAH təqaüdü"nün) təyin edilməsi və ödənilməsi qaydalarını müəyyən edir.

1.2. SABAH təqaüdü Azərbaycan Respublikası Təhsil Nazirliyinin SABAH qrupları üçün ayırdığı büdcə vəsaiti və digər qanunvericiliklə qadağan olunmayan mənbələr hesabına ödənilir.

1.3. SABAH təqaüdü ədalətlilik, bərabərlik, şəffaflıq və rəqabətlilik prinsipləri əsasında verilir.

## 2. SABAH təqaüdünün növləri və onların dəyişdirilməsi

2.1. SABAH təqaüdü – "Əlaçı" təqaüdü və "Həvəsləndirici" təqaüd olmaqla iki növə bölünür. Bu təqaüd növləri tələbələrin hər bir semestrin (imtahan sessiyasının) sonunda ümumi orta müvəffəqiyyət göstəricisinin (ÜOMG) nəticəsinə əsasən müəyyənləşdirilir.

2.2. Hər yeni semestrin başlanğıcında (SABAH qruplarında birinci tədris ilinin birinci semestri istisna olmaqla) təqaüd almaq hüququ qazanmış tələbənin əvvəlki semestrin ÜOMG nəticələrinə və bu Qaydanın 3.5-ci bəndinə uyğun olaraq, təqaüdün növü ("Əlaçı" və ya "Həvəsləndirici") müəyyənləşdirilir və müvafiq ali təhsil müəssisəsinin SABAH mərkəzi tərəfindən təsdiq edilir.

2.3. Tələbənin təhsildəki nəticələrindən asılı olaraq, bu Qaydada qeyd olunan şərtlərə əsasən, ona təyin edilən təqaüdün növü dəyişdirilə və ya tələbə təqaüd almaq hüququnu itirə bilər.

## 3. SABAH təqaüdünün müəyyən olunması meyarları və hesablanması

3.1. SABAH qruplarında təhsil alan bütün tələbələrə bu qruplarda təhsil aldığı birinci tədris ilinin birinci semestri ərzində – 50 manat məbləğində təqaüd ödənilir.

3.2. SABAH təqaüdü tələbələrin imtahan sessiyalarının nəticələrinə əsasən hər kursun müvafiq ixtisasları üzrə təhsil alan tələbələrdən akademik borcu olmayan və ÜOMG-yə görə ən yüksəkdən başlayan sıralamaya uyğun ən yaxşı nəticə göstərmiş 50 % - nə təyin edilir.

3.3. SABAH təqaüdü müəyyənləşdirilərkən təhsil alan tələbələrin ən yaxşı nəticə göstərmiş 50 % - nin sayı təksaylı olduqda, təqaüd artan istiqamətdə yuvarlaqlaşadırılaraq, artıq olan tələbəyə (və ya tələbələrə (bundan sonra – "Təqaüd almaq hüququ qazanan tələbələr")) tətbiq olunur.

3.4. Təqaüd almaq hüququ qazanan tələbələr müəyyənləşdirilərkən ən yaxşı nəticə göstərən, eyni bal toplamış bir neçə nəfər olduqda onların hər birinə təqaüd təyin olunur.

3.5. Hər semestrin (imtahan sessiyasının) sonunda təqaüd almaq hüququ qazanmış tələbələrə SABAH təqaüdləri semestr üzrə nəticələrə əsasən, aşağıdakı kimi müəyyənləşdirilir:

- hər bir fənn üzrə göstəriciləri 91-100 bal olan tələbələrə – 70 manat "əlaçı" təqaüdü;
- təqaüd almaq hüququ qazanmış tələbələrin "əlaçı" olmayan digər hissəsinə – 50 manat "həvəsləndirici" təqaüdü ödənilir.

## 4. SABAH təqaüdünün ödənilməsi

4.1. SABAH təqaüdü hər yeni semestrin əvvəlində müəyyən olunur və ayda bir dəfə müvafiq qaydada ödənilir;

4.2. Yay tətili dövründə və ya hər hansı digər səbəbdən SABAH qruplarında təhsili dayandırıldıqda, müvafiq olaraq həmin tələbələrə SABAH təqaüdünün ödənilməsi də dayandırılır.

4.3. Tələbənin hər hansı digər səbəbdən dayandırılmış təqaüdü müvafiq olaraq ÜOMG sıralamasında növbəti yer tutan digər tələbəyə verilir.